# Qonağımız qazi Zaur Bayramoğludur

Redaksiyanın qapısı açıldı, əvvəlcə ağbirçək ana, sonra da onun qoluna girmiş hündür boylu, gözündə qara eynək, əlində əsa olan oğlu içəri girdilər. Dərhal pişvaza çıxdım. Əyləşməyə yer göstərdim. Qonağım özünü təqdim elədi: Zaur Bayramoğlu. Dedi ki, 1978-ci ildə Culfa rayonunun Milax kəndində doğulub, özü də ziyalı ailəsində. Orta məktəbi də əla qiymətlərlə bitirib, sonra da təhsilini M.Ə.Rəsulzadə adına BDU-nun tarix fakültəsində davam etdirib.

1999-cu ilin yanvarında həqiqi hərbi xidmətə yollanıb. Həmən ilin yayında hərbi hissənin xüsusi zabitləri tərəfindən seçilərək, Xüsusi Təyinatlı Qüvvələr məktəbinə oxumağa göndərilib. Kursu birinciliklə bitirdikdən sonra N saylı hərbi hissədə xidmətə başlayıb. Ən kədərli hadisə də elə burda başlayıb; 2001-ci ildə vəzifə borcumu yerinə yetirən Zaur mina partlayışı nəticəzində ağır travma alır, üstəlik, iki gözünü itirir, altı barmağı amputasiya olunur... Amma mina nə onun ruhunu öldürə bilir, nə də əlillik yazıb-yaratmağına mane olur... Zaur düşdüyü zülmətin içində öz işığını yaradıb. Öz dünyasını qurub. Bu illər ərzində altı kitab yazdığını dedi. Mən bu an mat qaldım: bunu necə bacarıb? Necə yazıb? Dörd barmaqla yazmaq olar, bəs göz? Zaurun gözləri qulaqlarıymış.

Dedi ki, "Azərbaycan" jurnalına hekayə vermək istəyirəm. Dedim buyur. O, məndən elektron ünvanımı istədi. Telefonunu çıxarıb, sağ qalmış barmağıyla hansısa səhifələri çevirir, mənim üçün "cığ-cuğ" kimi gələn səslərin arasından nəyisə seçir, elə bil telefonun ekranını görürdü. Hekayələrini seçdi, sonra verdiyim elektron ünvanı yazdı. Hərfləri necə tapdığını, necə ardıcıl düzdüyünü hələ də anlamıram. Dedi göndərdim. Baxıram ki, həqiqətən məktub ünvana çatıb. Belə bir fenomenal bacarığı olan bir adamın dünyası mənə çox maraqlı gəldi.

Zaur qardaşımızı ötürəndən sonra göndərdiyi hekayəni oxudum. Başqa bir aləmə getdim. Bu hekayəni Zaurdan başqa heç kim yaza bilməzdi.

Redaksiyamız qərar verdi ki, Zaur Bayramoğlunun "Qara mamba" hekayəsinə toxunmadan, müəllifin yazdığı kimi təqdim edək.

***Vüsal NURU***